# **İstifadə qaydaları və konfidensiallıq siyasəti**

"Expressbank" ASC-nin (bundan sonra "Bank") internet səhifəsindən (bundan sonra "internet səhifəsi") istifadə qaydaları və konfidensiallıq siyasəti Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin tələblərinə riayət etməklə Sizin Bankın xidmətlərindən yararlanmaq üçün təqdim etdiyiniz məlumatların toplanması və mühafizə olunması şərtləri ilə tanış olmağınız məqsədi ilə tərtib olunmuşdur. Bankın internet səhifəsindən istifadə etməklə müştəri bu İstifadə qaydaları və Bankın konfidensiallıq siyasətini qəbul etməyə razılıq verir.

İnternet səhifəsindən istifadə etmək üçün hər hansı şəxsi məlumatların təqdim edilməsi Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə müvafiq olaraq könüllülük prinsipinə əsasən həyata keçirilir. Müştəri daxil etdiyi fərdi məlumatların düzgünlüyünü, Bank isə internet səhifəsinə daxil olaraq onlayn müraciət edən və Şəxsi kabinet yaradaraq qeydiyyatdan keçən müştərilərin daxil etdikləri fərdi məlumatların qorunmasını təmin edir. "Fərdi məlumatların qorunması haqqında" Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinin tələbinə əsasən müştəriyə aid fərdi məlumatlar onun tərəfindən internet səhifəsinə daxil olunduğu andan mühafizə olunur. Bundan əlavə "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununun 41-ci maddəsi və Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 967-ci maddəsinə əsasən Bank müştəri haqqında əldə etdiyi məlumatların sirrinə təminat verir.

Müştəri tərəfindən təqdim olunan məlumatlar qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla heç bir halda üçüncü şəxslərə ötürülə bilməz. Belə ki, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununun 41.2.-ci bəndinin tələbinə müvafiq olaraq müştərilərin internet səhifəsində qeydiyyatdan keçdikləri anda daxil etdikləri fərdi məlumatlar yalnız özlərinə və onların nümayəndələrinə, həmçinin kənar auditorlara, maliyyə monitorinqi orqanına və maliyyə bazarlarına nəzarət orqanına verilə bilər. Bu cür məlumatlar dövlət orqanlarına və onların vəzifəli şəxslərinə yalnız cinayət işinin istintaqı, müştərinin pul vəsaitinə və bankın saxlancında olan əmlakına həbs qoyulması, tələb yönəldilməsi və bunların müsadirə edilməsi ilə əlaqədar məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında verilir.

Bank hazırkı İstifadə qaydalarına dəyişikliklər etmək hüququnu özündə saxlayır. Edilən dəyişikliklərdən xəbərdar olmaq üçün bu internet səhifəni izləməyiniz tövsiyə olunur.